**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№312/4** **24 iyul 2019-cu il**

**“Azərbaycan Respublikası Auditorlar Palatasının vəzifəli şəxslərinin xüsusi hesabatı barədə Qayda və onun Hesabat Forması” haqqında**

“Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa və digər qanunvericilik aktlarına, habelə Beynəlxalq Audit Standartlarının tələblərinə zidd olan hallar üzrə Azərbaycan Respublikası Auditorlar Palatasının vəzifəli şəxslərinin öz qulluq mövqeyindən, təmsil etdiyi qurumun statusundan, vəzifə səlahiyyətlərindən sui-istifadə nəticəsində audit bazarında sağlam rəqabətə birbaşa və dolayı yolla təsir etmələrinin və dempinq hallarının qarşısının alınması və Auditorlar Palatası sədrinin “Auditorlar Palatasının vəzifəli şəxslərinin və əməkdaşlarının audit bazarında sağlam rəqabətə birbaşa və ya dolayı yolla təsir etmələrinin qarşısının alınması barədə” 2019-cu il 12 fevral tarixli 1/11 nömrəli sərəncamının 4-cü bəndinin icrasını təmin etmək məqsədilə Palatanın Şurası yanında Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitənin sədri E.Qurbanov tərəfindən hazırlanmış “Azərbaycan Respublikası Auditorlar Palatasının vəzifəli şəxslərinin xüsusi hesabatı barədə Qayda və onun Hesabat Forması”nın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Azərbaycan Respublikası Auditorlar Palatasının vəzifəli şəxslərinin xüsusi hesabatı barədə Qayda və onun Hesabat Forması” təsdiq edilsin (əlavə olunur).
2. “Azərbaycan Respublikası Auditorlar Palatasının vəzifəli şəxslərinin xüsusi hesabatı barədə Qayda və onun Hesabat Forması” 2020-ci ilin 1 yanvar tarixindən tətbiq edilsin.
3. Auditorlar Palatasının vəzifəli şəxsləri tərəfindən bu qərarın 1-ci bəndi ilə təsdiq edilmiş Qaydaya əməl edilməsi təmin edilsin.
4. “Azərbaycan Respublikası Auditorlar Palatasının vəzifəli şəxslərinin xüsusi hesabatı barədə Qayda və onun Hesabat Forması”nın müəllifi, Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitənin sədri E.Qurbanova təşəkkür elan edilsin.
5. Bu qərarın, təsdiq edilmiş Qaydanın və onun Hesabat Formasının mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**